# Şahin Fazilə sevgilərlə



Bu günlərdə görkəmli ədəbiyyatşünas alim, şair, tərcüməçi və tarixçi Şahin Fazilin xatirəsi dərin sayğılarla yad edildi. AYB-nin Natəvan klubunda keçirilən tədbiri Mətbuat Şurasının sədri Rəşad Məcid açaraq qeyd etdi ki, o, olduqca ziyalı bir insan idi. Çoxcəhətli yaradıcılıq imkanları vardı.

Tədbirin aparıcısı, tənqidçi Əsəd Cahagir də Ş.Fazilin zəngin yaradıcılığına ekskurs etdi. Onun şair, tarixçi, tərcüməçi kimi fəaliyyətinin əhəmiyyətini, şəxsi keyfiyyətlərini yüksək dəyərləndirdi.

Millət vəkili Əlibala Məhərrəmzadə, tarixçi alim Ramil Ağayev Şahin müəllimin qayğıkeşliyindən öz işinə vicdanla yanaşmasından söz açdılar.

Şair Ramiz Qusarçaylı dedi: "Şahin müəllim içi işıqla dolu olan bir şəxsiyyət, yeriyən, düşünən tarix idi. Hər il doğma Qubaya dincəlməyə gəlirdi. Amma heç dincəlmirdi ki... Durub-dayanmadan yazıb-yaradırdı. Mənbələr axtarırdı. Tədqiq edirdi, şərhlər yazırdı..."



Tarixçi alim Vaqif Abışov, professor Eynulla Məmmədli də vaxtilə Şahin Fazillə ünsiyyətdə olmalarını böyük şans kimi dəyərləndirdilər.

Tanınmış şair Yusif Həsənbəy uşaqlıq, gənclik illərində onunla qonşu olduqlarını xatırlatdı. Dedi ki, Şahin müəllim az danışan, amma düz, yetərincə dəyərli danışan bir söz adamıydı. Onun insanpərvərliyinə, səmimiyyətinə, tərbiyəsinə heyran idim. Atasının zəngin kitabxanası vardı. O mühit Şahinin gələcək fəaliyyətində böyük rol oynadı. Mən onun təbiətinə vurğun idim..."

Ədəbiyyatşünas alim Vaqif Yusifli Ş.Fazildən böyük ziyalı, sənət fanatiki, çağdaş ədəbiyyatı yaradanlardan biri kimi bəhs etdi.

Xalq artisti Əli Nur, tanınmış alimlərdən Mübariz Ağalar, Əzizağa Elsevər, professor Zəhra Muradova, həmyerliləri İsrafil Qurbanov, Əkrəm Qaflanoğlu, şairlərdən Tofiq Nurəli, Dayandur Sevgin, Mübariz Süleymanlı çıxış edərək Şahin müəllimin çoxsahəli yaradıcılığından, özünəməxsus keyfiyyətlərindən söz açdılar.

Sonda Şahin Fazilin qızı Ülviyyə xanım atasının xatirəsini əziz tutduğuna görə Azərbaycan Yazıçılar Birliyinin rəhbərliyinə, onun çoxsaylı qədirbilənlərinə təşəkkür etdi.

***Aynur HƏTƏMOVA***